*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journa lof History and Idea*
*ISSN: 2148-2292*
*10 (2) 2023*
*https://doi.org/10.46868/atdd.2023.*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received: 07.09.2023*
*Kabul tarihi |Accepted: 02.10.2023*
*Yayın tarihi |Published: 10.11.2023*

**Aygün İsgandarova**

*https://orcid.org/0000-0002-1550-0134*
*PhD student, Senior Specialist, Baku State University, Azerbaijan, aygun.tyt@gmail.com*

*Atıf Künyesi | Citation Info*

İsgandarova, A. (2023). Azərbaycanda Kitabxana Mütəxəssislərinin Profesional Vərdişlərinin Formalaşmasında Dövri Elmi Nəşrlərin Rolu (Bakı Dövlət Universiteti İnformasiya-sənəd menecmenti fakültəsi alimlərinin əsərlərinin elmmetrik təhlili). *Akademik Tarih ve Düşünce Dergisi, Türkiye-Azerbaycan İlişkilerinin 100. Yılı Özel Sayısı, 10* (2), 485-491.

# Azərbaycanda Kitabxana Mütəxəssislərinin Profesional Vərdişlərinin Formalaşmasında Dövri Elmi Nəşrlərin Rolu (Bakı Dövlət Universiteti İnformasiya-sənəd menecmenti fakültəsi alimlərinin əsərlərinin elmmetrik təhlili)

***Öz***

*Ölkəmizdə informasiya cəmiyyəti quruculuğu sahəsində uğurlu dövlət siyasəti, qəbul olunmuş Dövlət Proqramları və hüquqi-normativ sənədlər elmdə islahatlar çərçivəsində elmi fəaliyyətin müasir informasiya-kommunikasiya texnologiyaları (İKT) əsasında yenidən qurulması və inkişaf etdirilməsi məsələlərini zəruri edir. Elmi fəaliyyətdə və elmin idarə edilməsi məsələlərində İKT-nin tətbiqi respublikada elm sahəsindəki islahatların prioritet sahələrindən olaraq e-elm çərçivəsində reallaşdırılır. İKT-nin imkanlarından geniş istifadə etməklə elmi fəaliyyətin müasir tələblərə uyğun qurulması və inkişaf etdirilməsi, idarəetmənin təkmilləşdirilməsi, milli elmi informasiya fəzasının formalaşdırılması nəticəsində təşkilatların, kollektivlərin və alimlərin qarşılıqlı sıx əlaqəsinə və tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsinə və dünya elmi məkanına inteqrasiyasına nail olunur. Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya (indiki İnforma-siya və sənəd menecmenti) fakültəsinin professoru X.İ.İsmayılov peşəkar mütəxəssislərin hazırlanması ilə yanaşı, 1997-ci ildə "Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-təcrübi jurnalını təsis edərək onun fəaliyyətini təşkil etmiş və uzun müddət Azərbaycanda yeganə sahəvi elmi jurnal olaraq yüksək peşəkarlığı ilə fərqlənmişdir. 2010-cu ildə professor A.A.Xələfov "Kitabxanaşünaslıq və informasiya" adlı elmi təcrübi jurnalı təsis etdi və az bir müddətdən sonra jurnalın ilk nömrəsi işıq üzü gördü.*

**Açar sözlər:** *Sahəvi-elmi nəşrlər, elmi jurnallar, elmmetrik təhlil, kitabxanaşünas mütəxəssislər*

# The Role of Periodical Scientific Publications in the Formation of Professional Skills of Library Specialists in Azerbaijan (Scientometric analysis of the work of scientists of the Faculty of Information and Document Management of Baku State University)

***Abstract***

*Successful state policy in the field of building the Information Society in our country, adopted state programmes and legal-normative documents require restructuring and development of scientific activities on the basis of modern information and communication technologies (ICT) within the framework of reforms in the field of science. The application of ICT in the issues of scientific activity and science management is carried out within the framework of e-science as one of the priority areas of reforms in the field of Science in the Republic. Thanks to the comprehensive use of ICT facilities, the establishment and development of scientific activity in accordance with modern requirements, improvement of management, creation of the national scientific information space, close interaction of organisations, collectives and scientists, increasing the efficiency of research work and integration into the world scientific space are ensured. X.I. Ismayilov, professor of the Faculty of Library-Information (current information and document management) of Baku State University, in addition to the training of professional specialists, founded and organised the scientific-practical journal "Library studies and bibliography" in 1997, which for a long time showed itself with high professionalism as the only sectoral scientific journal in Azerbaijan. In 2010, Professor A.A.Khalafov founded the scientific-experimental journal "Library Studies and Information" and soon the first issue of the journal was published.*

***Keywords:*** *sectoral-scientific publications, scientific journals, scientometric analysis, librarian specialists*

## Giriş

E-elmin yaranması və inkişafı elmin müxtəlif istiqamətlərində yayılması və inteqrasiya proseslərini də sürətləndirdi. Qlobal elmi informasiya prosesləri bir tərəfdən elmin inkişafını təmin edir, digər tərəfdən elmi informasiyanı yerli və regional çərçivədən çıxararaq onu qloballaşdırırdı.

Dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycanda kitabxanaşünas alimlərin, xüsusilə milli-elmi məktəb yaratması sahəsində görkəmli alim, professor A. A. Xələfovun rolu böyük olmuşdur (Aghamirzayev, 2021). Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahələrində tədris planlarının hazırlanması, tədris ədəbiyyatının yazılması, elmi məqalələrlə elmi mətbuatda çıxışların edilməsi və eyni zamanda, yeni tələblərə cavab verəcək mütəxəssislərin hazırlanmasında professor A. A. Xələfovun xidmətləri böyük olmuşdur. Həmin illərdə professor X. İsmayılov peşəkar mütəxəssislərin hazırlanması ilə yanaşı, 1997-ci ildə “Kitabxanaşünaslıq və biblioqrafiya” elmi-təcrübi jurnalını təsis edərək onun fəaliyyətini təşkil etmiş və uzun müddət Azərbaycanda yeganə sahəvi elmi jurnal olaraq yüksək peşəkarlığı ilə

fərqlənmişdir (Kazımi, 2021). 2010-cu ildə professor A. A. Xələfov "Kitabxanaşünaslıq və informasiya" adlı elmi təcrübi jurnalı təsis etdi və az bir müddətdən sonra jurnalın ilk nömrəsi çapdan çıxdı.

Kitabxanaşünas alimlərin tədricən beynəlxalq elmi mühitə inteqrasiyası nəticəsində yeni keyfiyyət tələbləri qarşıya çıxdı (Kazımi, 2017). Mütəxəssislərin informasiya ehtiyacı üç istiqamətdə təmin olunmağa başlandı. İlkin olaraq, respublika əhəmiyyətli elmi jurnallarda çap olunan və irəli sürülən elmi-nəzəri və təcrübi problemlər diqqəti cəlb edir. Bu platformada Azərbaycan alimləri daha əhatəli və məhsuldar iştirak edirdilər. Elmi yeniliklər, innovativ layihələr və alimlərin analitik təhlilləri bu platformada öz əksini tapırdı. Bu platforma özünü yerli elmi jurnallarda ifadə edirdi. Universitetlərin elmi xəbərləri ilə yanaşı, 1990-cı illərdə sahəvi elmi jurnallar təsis olunmağa başladı. Bu istiqamətdə ilk addımı atan professor X.İsmayılov oldu (Kazimi, Abdullayeva, & Ismayilov, 2020). O, ilk dəfə olaraq Azərbaycanda BDU-nun bazasında "Kitabxanaşünaslıq və biblioqrafiya" jurnalını təsis etdi. Bu jurnal Azarbaycan alimləri tərəfindən dəstəkləndi və qısa müddətdə –aparıcı elm platformasına çevrildi. Jurnal hazırda fəaliyyətini davam etdirir. 2010-cu ildə professor A. A. Xələfovun təsisçiliyi və baş redaktorluğu ilə "Kitabxanaşünaslıq və informasiya" jurnalı ilk nömrəsini çap etdirdi. Baş redaktorun şəxsi nüfuzu və məqalələr qarşısında qoyduğu tələblər jurnalı əsasən, elmi, nəzəri və müasir innovativ problemlərin təhlili platformasına çevirdi. Jurnal 2020-ci ilə qədər fəaliyyətini uğurla davam etdirsə də, professor A. A. Xələfovun vəfatından sonra fəaliyyətini dayandırdı.

Müstəqillik illərində təsis olunmuş və uğurla fəaliyyət göstərən elmi-sahəvi jurnallardan professor B. Allahverdiyevin "Kitabşünaslıq və nəşriyyat işi", dosent Knyaz Aslanın "Kitabşünaslıq və redaktor sənəti" adlı jurnalları Azərbaycan mütəxəssilərinin öz elmi əsərlərini çap etdirmək üçün akademik platformaya çevrilmişdir (Khalafov, 1960). Bu jurnallarda Azərbaycan alimlərinin və gənc tədqiqatçıların yüzlərlə məqaləsi çap olundu. Bu məqalələrin mövzularının və biblioqrafik istinadlarının təhlili də maraqlı bir tədqiqatın obyekti hesab etmək olar (İsmailov, 2004). İkinci, Rusiya və digər keçmiş sovet respublikalarında həmkar mütəxəssislərin elmi məqalə, dərslik və konfrans materialları əsasında formalaşan elmi konsepsiyalarını da misal göstərmək olar. Azərbaycan alimləri uzun müddət sovet elmi mühitində geniş akademik mühitlə tanış olmuş, əməkdaşlıq etmiş və qarşılıqlı elmi əsərlərə isitinadlar etmişdilər. Sovet hakimiyyəti illərində nüfuzlu elmi mərkəzlər hesab edilən müəssisələrin jurnalları müstəqillik illərində də elmi məqalələrin çap olunduğu sanballı platformalar hesab edilirdi. V. Lenin adına Mərkəzi Kitabxananın elmi əsərləri, Moskvada çap olunan "Nauçno-texniçeskie biblioteki" jurnalı, Vernardski adına Ukrayna Milli

Kitabxanasının elmi xəbərləri ciddi və mötəbər elmi platformalar hesab edilirdi. Elmi mühitə gənc tədqiqatçıların gəlməsi ilə bu platformalarda fəallığı aşağı düşmüş və yeni nəsil qlobal informasiya məkanına daha sürətlə inteqrasiya etməyə başlamışdır.

Üçüncüsü isə dünya elmi mühitində irəli sürülən innovativ və təcrübi problemlərlə əlaqədar məqalələr və konfrans materialları əsasında formalaşan elmi fikirlər təşkil edir. Nəhayət, Azərbaycan alimləri dünya elmi mühitinə inteqrasiya olmağa başladı və beynəlxalq əhəmiyyətli dil olan ingilis dilində məqalələr dərc etməyə başladılar. 2000-ci illərdən başlayaraq e-elm öz texnoloji imkanlarını genişləndirdikcə Azərbaycan alimlərinin də elmi tədqiqatları beynəlxalq platformalarda öz əksini tapmağa başladı. Beynəlxalq nüfuzlu platformalarda dərc olunan Azərbaycan mütəxəssislərinin əsərlərini əsasən iki qrupa bölmək olar: mültidistiplinar beynəlxalq açıq elmi platformalar və koorporativ məlumat bazalarına daxil olunan jurnallar.

2017-ci ildən başlayaraq Azərbaycan alimlərinin bu platformalarda elmi əsərlərinin sayı sürətlə artmağa başladı (Gardashov & Kazimi, 2023). Bu prosesə Azərbaycan Prezidenti Yanında AAK-ın əsasnaməsində edilən dəyişikliklərlə yanaşı, Azərbaycan mütəxəssislərinin ingilis dilində əsərlərinin çoxalması və elmi məqalələrə verilən tələblərin Azərbaycan elmi mühitinə tətbiqi də öz təsirini göstərdi. Beynəlxalq indeksləşən məlumat bazalarına daxil olan jurnallar akademik fəaliyyətin qiymətləndirilməsi ilə əlaqədar geniş imkanlar yaratdı. Mütəxəssislərin elmi məqalələrinin istinadlar statistikası öyrənilib və H indeksi müəyyənləşdirilməyə başlanıldı. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq ixtisası ilə çap olunan Azərbaycan elmi jurnallarından hal-hazırda heç biri indeksləşən məlumat bazalarına daxil deyil. Lakin bir çoxu Rusiyanın, Ukraynanın və Qazaxıstanın elmi jurnalları belə bu məlumat bazalarına daxildir. Bu istiqamətdə yüksək fəallıq göstərən ölkələrdən Hindistan, Pakistan və Çin elmi mərkəzlərinin jurnallarını göstərmək olar. İngiltərə, ABŞ və Almaniya elmi jurnallarının yüksək akademik reytinqlərini də qeyd etmək lazımdır. Bu istiqamətdə fəaliyyət göstərən Türkiyə Cümhuriyyətinin sahəvi elmi jurnalları da yüksək akademik reytinqə malikdir və nüfuzlu indeksləşən məlumat bazalarına daxil olmuşdur.

## 1. Problem Analysıs

Milli "e-elm" konsepsiyası mövcud elmi mühitin tələblərinə uyğun yenidən qurulması və İKT-nin həmin mühitə tətbiqi kimi iki əsas fundamental məsələnin həllinə əsaslanır. Bu məqsədlə dünya təcrübəsinin öyrənilməsi, elmi fəaliyyətdə İKT-nin tətbiqi vəziyyətinin monitorinqinin aparılması, e-elmin idarə olunması və informasiya təhlükəsizliyinin təmin edilməsi məsələlərinin tədqiqi, elmi-nəzəri əsaslarının işlənilməsi və praktiki reallaşdırılması

kimi kompleks məsələlərin ardıcıl həlli nəzərdə tutulur. Həmin məsələlərin həlli ilə aşağıdakı nəticələrə nail olmaq mümkündür.

1. Dünya təcrübəsinin öyrənilməsi, monitorinqin nəticələrinə əsasən, elmin informasiyalaşdırılmasının tənzimlənməsi və hüquqi-normativ bazanın təkmilləş-dirilməsi ilə milli "e-elm" proqramı müasir dünya standartları səviyyəsində həyata keçirilir.

2. E-elmin kommunikasiya-şəbəkə infrastrukturu formalaşdırılır. Bu da maddi-texniki bazanın təminatı, elmi təşkilatların lokal şəbəkələrinin yaradılması və sürətli internet çıxışının təmin edilməsinə, Azərbaycanın elmi qurumlarını birləşdirən vahid elmi şəbəkənin yaradılması, təhlükəsizlik strategiyasının işlənməsi və beynəlxalq elmi şəbəkələrlə inteqrasiyanın həyata keçirilməsi hesabına reallaşdırılır**.**

3. Müxtəlif təyinatlı informasiya resursları yaradılır.

4. Elmi fəaliyyətdə İKT-nin tətbiqi ilə bilavasitə əlaqədar tədqiqatçının iş yerinin təşkili və elmi kollektivlərin fəaliyyətlərini əhatə edən məsələlər, elmin müxtəlif sahələri üzrə onlayn mühit əsasında yeni elmi münasibətlərin qurulması, beynəlxalq elmi qurumlarla qarşılıqlı əlaqələrin təşkili, elmi informasiya fəzalarının formalaşdırılması, elmin kommersiyalaşdırılması məsələləri öz həllini tapır.

5. Elmi kadrların müasir İKT sahəsində maarifləndirilməsi və texniki-proqram vasitələrinə xidmətin təşkili üçün kadr hazırlığı həyata keçirilir.

Müstəqillik illərində Azərbaycanda kitabxanaçılıq-informasiya sahəsinin modernləşdirilməsi tələbləri və profesional elmi jurnalların nəşri, nəşr olunan məqalələrin, elmi istinadların təhlil, təsirlilik faktoru, H indeksinin müəyyənləşdirilməsi və reytinqlərin qiymətləndirilməsi kimi məsələlər kompleks şəkildə öyrənilməlidir. Kitabxanaçılıq-informasiya sahəsi üzrə mütəxəssislərin informasiya təminatı sistemi e-elm vasitəsi ilə həyata keçirilir (Tofiq, Oqlu & Kazimi, 2022). E-elm mürəkkəb bir sistem olaraq müxtəlif təyinatlı və məqsədli texniki və proqram vasitələrinin toplusu ilə xarakterizə olunur.

**Nəticə**

Azərbaycanda kitabxana mütəxəssislərinin profesional vərdişlərinin formalaşmasında dövri elmi nəşrlərin rolu, problemi (BDU-nun İnformasiya-sənəd menecmenti fakültəsi alimlərinin əsərlərinin elmmetrik təhlili) mövzusunda ümumi mənzərəni yaratmaqla yanaşı, onun müstəqillik illərində keçdiyi təkamül yolunu da işıqlandırmağa çalışdıq (Kazimi, Guliyeva, 2022). Elmi jurnallarda mütəxəssislərin elmi əsərləri və müəlliflərin İmpakt Faktorunu müəyyənləşdirmək üçün e-elmin müasir alətlərindən geniş istifadə olunması tövsiyə olunur. Müstəqil Azərbaycan Respublikasında yeni cəmiyyət quruculuğu, milli və dünyəvi dövlətçilik ənənələrinin inkişafı və formalaşması prosesləri bütün ideoloji, təhsil, tərbiyə,

informasiya, mədəniyyət müəssisələrinin, o cümlədən, kitabxanaların qarşısında mühüm vəzifələr qoymuşdur (Kunanets, Dobrovolska, Filippova, Parviz, Lypak, Duda, & Dubrovina, 2020). Kitabxana işi cəmiyyətin informasiya və mədəniyyət strukturunda əsas həlledici amil kimi qədim zamanlardan mövcud tarixi quruluş və ideologiyaya uyğun təşkil edilmiş, lakin heç vaxt öz məqsəd və məramından kənarlaşmamış, yəni əsas işi cəmiyyət üzvlərinin informasiya tələbatını təmin etməkdən ibarət olmuşdur. İlkin dövrlərdən görkəmli elm, mədəniyyət, siyasət xadimləri, ziyalılar kitabxanaların işinə və quruculuğuna böyük əhəmiyyət vermiş, onları yüksək qiymətləndirmişlər.

Hazırda kitabxanalarda informasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf edir, bu da kitabxana xidmətində, ədəbiyyatın geniş təbliğində mühüm əhəmiyyətə malikdir (Kazimi, 2021). Onu da qeyd etmək lazımdır ki, müasir mərhələdə kitabxana işinin məqsədi, vəzifə və öhdəlikləri son dərəcə qlobal xarakter almış, kitabxanaçılıq təhsilində, kitabxana işində müasir texnologiyalardan istifadə zəruriliyi meydana çıxmışdır (Kazimi, 2014). Elm və texnikanın sürətli inkişafı, informasiya-kommunikasiya texnologiyalarının müasir tiplərinin meydana çıxması və onlardan informasiya tələbatının təmin edilməsi üçün istifadə edilməsinin mümkünlüyünü qlobal informasiya cəmiyyətində əhəmiyyətli dönüş yaratmış, kitabxana işinin, kitabxanaçılıq təhsilinin (orta və ali) inkişafında, genişlənməsində və fəaliyyət dairəsinin artmasında mühüm rol oynamışdır.

Azərbaycanın dünya elmi istehsalına verdiyi töhfələrlə yanaşı, İKT-nin elmi nəticələrinin də payı artmaqdadır (İsmailov, 2005). Azərbaycanda son iki onillikdə ardıcıl inkişaf tendensiyaları müşahidə olunur. Bu baxımdan son illər Azərbaycanın payı təxminən, orta hesabla 1,7% təşkil edir. Araşdırma zamanı çoxlu sayda kitab, məqalə və digər elmi mahiyyət kəsb edən materiallar müəyyən edilmişdir ki, onlar da qlobal informasiya məkanına daxil edilməmişdir. Bu növ materialların rəqəmsallaşdırılaraq qlobal informasiya məkanına daxil olması Azərbaycanın informasiya yükünü faiz baxımından daha da artırmalıdır. Bu informasiya kütləsinin içərisində müxtəlif keyfiyyət tərkibli, elmi dəyərli materiallar çoxdur. Çox böyük informasiya kütləsi dissertasiyalar, elmi müəssisələrin hesabatları və hər şeydan öncə Azərbaycanda çap olunan elmi jurnallardır. Hələ də respublikanın elmi müəssisələri tərəfindən çap olunan elmi jurnallar və xəbərlər xüsusi əhəmiyyət daşıyan materiallarını rəqəmsal məkana çıxarmamış və beynəlxalq standartlara uygunlaşdırmamışdır. Bu istiqamətdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin və Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının son illərdə tətbiq etdiyi normalar və tələblər yaxın zamanlarda göstəricilərin daha da yüksəldilməsinə ümid doğurur.

## Ədəbiyyat

Aghamirzayev, A. C. (2021). Bright Image of the first wave Russian emigration literature-Ivan Bunin. *Technium Social Science Journal, 26*, 829-835 (In English)

Gardashov, R., & Kazimi, P. (2023). University Libraries as Centers for Scientific Communications (According to the Experience of Higher Educational Institutions of the Republic of Azerbaijan). *Scientific and Theoretical Almanac Grani, 26* (1), 62-65. https://doi.org/10.15421/172310 (In English)

İsmailov Kh. (2004). Librarianship and its legal foundations. *Library science and bibliography: scientific-theoretical, applied journal*, 15–23 (in Azerbaijani)

İsmailov Kh. (2005). Some issues of library statistics. *Library science and bibliography: scientific-theoretical, applied journal*, 1. 18-26. (in Azerbaijani)

Kazimi P. (2014). Information Engineering: What's This?.*International Journal of Academic Research,* 6. 3. (In English)

Kazimi P. F. O., Guliyeva, N. A. G. (2022). The concept of reliable information on the global network in times of crisis. Technium Social Science Journal, 30, 742-750. (In English)

Kazimi, P. F. (2017). Sosyal ve Kültürel Ortamın Oluşmasında Kitap ve Kütüphanelerin Rolü. *Türk Kütüphaneciliği*, *31* (2), 245-250. (In Turkish)

Kazimi, P. F. O. (2021). Democratic countries and ways of influencing the nature of information. *Technium Social Science Journal 22*, 847-852. (In English)

Kazimi, P. F. O. (2021, September). Global Information Network and Conflicts of Interest (Parties, Interests and Conflicts). In *2021 IEEE 16th International Conference on Computer Sciences and Information Technologies (CSIT)* (Vol. 2, pp. 453-456). IEEE. (In English)

Kazimi, P., Abdullayeva, A., & Ismailov, N. (2020). Scientometric analysis of document flow in library science of azerbaijan (2014-2018). *Norwegian journal of development of the international science,* (45-2), 66-70. (In English)

Khalafov A. A. (1960). History of librarianship in Soviet Azerbaijan (1920-1932) – Baku. (in Azerbaijani)

Kunanets, N., Dobrovolska, V., Filippova, N., Parviz, K., Lypak, H., Duda, O. & Dubrovina, L. (2020, September). Designing the Repository of Documentary Cultural Heritage. In *Conference on Computer Science and Information Technologies* (pp. 1034-1044). Springer International Publishing. (In English)

Oqlu, K. (2021). Dynamic Development of Information Technologies, Organization of Library Services Using Digital Space and Through Social Networks. *Asian Journal of Education and Social Studies, 16* (4), 27-32. (In English)

Tofig, R. Z., Oglu, M. M. A. & Kazimi, P. F. O. (2022). Some questions of the application of library management. *Technium Social Science Journal, 37*, 774. (In English)